# "Böyük alim, ictimai xadim, dədə dost "

**Bir kitab da işıq üzü görərək çoxsaylı kitablar sırasına qatıldı. Həsən bəy Zərdabi mükafatı laureatı Etibar Nadiroğlunun müəllifliyi ilə çıxmış bu yeni nəşr " Böyük alim, ictimai xadim, dədə dost " adlanır. Vətənpərvər ziyalı, məşhur elm xadimi, Beynəlxalq Cərrahlar Assosiasiyasının həqiqi üzvü Nurəddin Rzanın elmi və ictimai fəaliyyətindən bəhs edən kitab səmimi hisslərlə, oxunaqlı tərzdə qələmə alınmışdır.**



Nurəddin Rza, kimliyi barədə burada dolğun təəssüratlar vardır. Birbaşa mətləbə keçərək maraqla qarşılanan məqamları qeyd etmək istərdim.

Nurəddin Rza milli - mənəvi dəyərlərin ləyaqətli təmsilçisidir. Onun hələ institut direktoru olduğu illərdə, Kremlin yürütdüyü bolşevik ab - havası dövründə istər Azərbaycanda, istərsə də keçmiş Sovet İttifaqının müxtəlif yerlərində keçirilmiş elmi toplantılarda etdiyi çıxışlar heyrətlə qarşılanmışdı. Azərbaycan dili, milli adət və ənənələr, mənəvi varlıq yönündə fikir və mülahizələri bilavasitə alimin özünün həyatında təzahür olunmuşdur.

Kitabda ilkin olaraq dünyaca tanınmış bu elm adamının doğulduğu və böyüdüyü ata ocağı haqqında duyğulu məqamlar yer almaqdadır. Hər bir kəsin həyatında doğma ocağın nə qədər önəmli faktor olması, kökə bağlılıq təzahürü, həyatın sadəcə gün keçirmək vasitəsi deyil - məhz iz qoymaq zərurəti olaraq dərk edilməsi məlum kitabda məxsusi olaraq diqqət çəkməkdədir .

Məlum kitabda Nurəddin Rzanın zəngin intellektual bazaya malik olması bir daha yaddaşlara çatdırılır və ötənlər xatırlanır. Öz elmi sahəsindən başqa onun digər elmlərə də bağlılığı burada öz təsdiqini tapmışdır. Ortaq türk dilinin nə qədər zəruri olduğunu öz təhlili və məntiqi dəlilləriylə əsaslandırmış alim bir sıra beynəlxalq konfranslarda hətta türkoloqlar tərəfindən belə hörmətlə qarşılanmışdır.

Böyük söz ustadı Məhəmməd Füzulinin " Leyli və Məcnun"unu təfsir edərək Nurəddin Rza həm də özünü bir filoloq - yazıçı kimi də tanıtmışdır. Azərbaycan Yazıçılar Birliyinin üzvü olan alimin müəllifi olduğu bədii - publisistik kitablar barədə də burada maraqlı bilgilər verilmişdir .

31 il fasiləsiz olaraq Elmi Tədqiqat İnstitutuna rəhbərlk etmiş, elmi kadrlar hazırlanmasında yaddaqalan xidmətlər göstərmiş Nurəddin Rzanın təbabətin ünlü simalarından biri olaraq oxuculara çatdırılması kitabda maraqlı detallarla qeyd edilmişdir. Həmkarlarının söylədikləri fikirlər də alimin təbib kimliyi barədə bitkin təsəvvür yaradır.

Nəhayət, kitabda qeyd edilən dədə dost ifadəsi barədə. Məşhur alimlər Xudu Məmmədov, Bəxtiyar Vahabzadə və Nurəddin Rzanın dostluğu Azərbaycan milli - mənəviyyatında bir dostluq nümunəsi olaraq örnək sayılmaqdadır. Bu məşhur dostların fərdi keyfiyyətləri əsasında yaranmış məlum dostluq qalası əslində Azərbaycan birliyinin, milli həmrəyliyin əvəzsiz nümunəsi kimi bundan sonra da diqqətlərdə qalacaqdır. Azərbaycana sayğısı olan dünyaca ünlü simalar məhz bu dostluq qalasını daim hörmətlə ziyarət etmişlər, edirlər. İrandan Cavad Heyət, Türkiyədən İbrahim Yıldırım, Qırğızıstandan Çingiz Aytmatov, Qazaxıstandan Oljas Süleymenov və digər dünya məşhurları bu aydınların mənəvi saflıqlarına, əməl və amal vəhdətinə daim vurğunluqlarını bildirmişlər.

Demə öz aralarında Xudu Məmmədov və Bəxtiyar Vahabzadə Nurəddin Rzanı dədə dost kimi dəyərləndirirmişlər. Üçü bir yerdə mənəvi kamillik, mənəvi bütövlük yaradan bu örnək dostluğu böyük istiqlal şairimiz B.Vahabzadə belə dəyərləndirmişdir:

*Hərənin ayrıca bir xasiyyəti,*
*Hərəmiz bir başqa aləm idik biz.*
*Hərənin ayrıca qədər - qisməti ,*
*Üçümüz bir yerdə bir tam idik biz.*

Bir sözlə Etibar Nadiroğlunun "Böyük alim, ictimai xadim, dədə dost" kitabı barədə çox yazmaq olar. Bu, mədəniyyət sahəsi əməkdaşının oxuculara təqdim etdiyi həm də bir mədəni xidmət nümunəsidir.

Yeri gəlmişkən. Kitabın müəllifi Etibar Nadiroğlu 25 ildən çoxdur ki, jurnalistika sahəsində fəaliyyət göstərməkdədir. Vaxtilə SSRİ Jurnalistlər İttifaqının üzvü olmuş və yarandığı vaxtdan Azərbaycan Jurnalistlər Birliyinin üzvü olan həmkarımızın indiyədək müxtəlif jurnal və qəzetlərdə yüzlərlə məqaləsi çıxmışdır. Onun imzası Azərbaycandan başqa, Rusiya və Türkiyə mətbuatında da görünmüşdür. Araşdırıcı publisist əzmi, analitik təhlil bacarığı ilə daha çox diqqət çəkən jurnalistin yaşadığı Gədəbəy rayonunun təbiət və tarixi abidələri, ayrıca olaraq məşhur Simens qardaşlarının 50 illik Gədəbəy fəaliyyəti, Novruz bayramı və s. barədə də kitabları çapa hazırlanmaq ərəfəsindədir.

Bir neçə kitabın müəllifi olan Etibar Nadiroğlunun ssenariləri əsasında bir neçə telefilm də çəkilmişdir. Hətta onlardan biri Qızıl fonda daxil edilmişdir. O həmçinin bir neçə kitabın redaktorudur.

● Oqtay QASIMOV